**Səbinə Sadıx qızı ƏSƏDOVA**
AR ETN İqtisadiyyat İnstitutunun böyük elmi işçisi
E-mail: sabina_esedova@mail.ru

# POST-KONFLİKT REGİONLARDA AQRAR DİRÇƏLİŞİN BEYNƏLXALQ YANAŞMALARI

**Xülasə**

Məqalədə post-konflikt regionlarda aqrar sektorun bərpasına dair beynəlxalq yanaşmalar müqayisəli şəkildə təhlil edilir, müxtəlif ölkələrin tarixi və müasir təcrübələrindən çıxarılan əsas prinsiplər ümumiləşdirilir. Tədqiqat göstərir ki, müharibə və ya genişmiqyaslı qarşıdurmalardan sonra kənd təsərrüfatının dirçəldilməsi təkcə maddi infrastrukturu deyil, həm də torpaq münasibətlərinin idarə edilməsini, institusional koordinasiyanı, kiçik təsərrüfatçılığın dəstəyini və dövlət–bazar tarazlığını tələb edən çoxsahəli prosesdir. Nəticə olaraq, belə qənaətə gəlinir ki, beynəlxalq təcrübə post-konflikt ölkələrdə aqrar sektorunun dirçəlişinə dair universal model təqdim etməsə də, əsas prinsipləri formalaşdırır.

**Açar sözlər**: post-konflikt inkişaf, aqrar dirçəliş, torpaq konsolidasiyası, kollektivləşmə, institusional islahatlar, beynəlxalq təcrübə, aqrar-sənaye inteqrasiyası.

**UOT:**338.43:332.1
**JEL:**O19, Q18
**DOI:** https://doi.org/ 10.54414/KBJV9982

## Giriş

Müxtəlif regionlarda baş vermiş müharibələr və silahlı münaqişələr göstərir ki, post-konflikt dövrdə iqtisadi bərpanın mərkəzi istiqamətlərindən biri məhz aqrar sektorun dirçəldilməsidir. Kənd təsərrüfatı həm ərzaq təhlükəsizliyinin təminində, həm də makroiqtisadi sabitliyin bərpasında əsas dayaq rolunu oynayır. Bununla belə, müxtəlif ölkələrin tarixi təcrübəsi göstərir ki, münaqişədən sonrakı aqrar dirçəliş nə avtomatik, nə də "öz-özünə bərpa" mexanizmi kimi baş verir, əksinə, tətbiq edilən siyasət paketlərinin məzmunu, institusional çərçivə, torpaq münasibətlərinin tənzimlənməsi və dövlət–özəl sektor münasibətlərinin balansı nəticələri kəskin şəkildə fərqləndirir. Tədqiqatın aktuallığı ondan ibarətdir ki, müasir dövrdə həm qlobal miqyasda, həm də regional səviyyədə münaqişə və post-konflikt ərazilərin sayı artdığı halda, kənd təsərrüfatının bərpasına dair siyasət arxitekturası hələ də vahid modelə əsaslanmır.

Tədqiqatın məqsədi post-konflikt regionlarda aqrar dirçəlişin beynəlxalq modellərini sistemləşdirmək, bu modellərin müsbət və zəif tərəflərini elmi əsaslarla təhlil etmək və əldə olunan nəticələr əsasında post-konflikt şəraitində aqrar siyasətin məzmununa dair metodoloji nəticələr çıxarmaqdır. Bu məqsədlə, tədqiqat bir tərəfdən tarixi təcrübəni (I və II Dünya müharibələrindən sonrakı Avropa, Tayvan nümunəsi), digər tərəfdən isə son 30 ildə Asiya və Afrika ölkələrində aparılmış empirik araşdırmaları (Ruanda, Sierra Leone, Mozambik, Kamboca, Peru, Şimali Uqanda və s.) vahid analitik çərçivədə bir araya gətirir. Nəticədə müxtəlif ölkələr üzrə formalaşmış bərpa modelləri müqayisəli təhlillərlə sistemləşdirilir, "bərpa effekti", torpaq münasibətləri, institutların keyfiyyəti, kiçik təsərrüfatların rolu kimi açar istiqamətlərin təsiri analitik şəkildə şərh olunur. Tədqiqatın metodoloji əsasını bir neçə yanaşmanın sintezi təşkil edir. İlk növbədə, mövcud elmi ədəbiyyatın, beynəlxalq təşkilatların (FAO, Dünya Bankı, regional inkişaf bankları və s.) hesabatlarının və müasir elmi tədqiqatların sistemli ədəbiyyat icmalı aparılmış, post-konflikt aqrar bərpaya dair nəzəri və praktik çərçivələr müəyyən edilmişdir.

**I və II Dünya müharibələrindən sonra aqrar sektorun dirçəlməsi**

Həm I Dünya Müharibəsi, həm də II Dünya Müharibəsi bitdikdən sonra Avropa və Şimali Amerika kimi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sektoru ağır sınaqlarla üzləşdi. Müharibələr ərzində əkin sahələri zərər görmüş, ərzaq qıtlığı yaranmış, iqtisadiyyat hərbi relsdən sülh dövrünə keçid etmək məcburiyyətində idi. Fərqli ölkələr bu problemlərin öhdəsindən gəlmək üçün müxtəlif modellər tətbiq etdilər. Bəziləri bazar mexanizmlərinə güvəndi, bəziləri isə dövlət dəstəyi və islahatlarla sektoru dirçəltməyə çalışdı. Nəticələr də fərqli oldu – uğurlu nümunələr olduğu kimi, uğursuz yanaşmalar da ortaya çıxdı.

I Dünya Müharibəsindən sonra, xüsusilə 1918-ci ildən etibarən qlobal ərzaq tələbinin azalması nəticəsində kənd təsərrüfatı sektorunda artıq məhsul yaranmış və qiymət böhranı müşahidə edilmişdir. Bu vəziyyət ən çox ABŞ və Kanadada hiss olunurdu. Müharibə illərində Avropada kənd təsərrüfatı istehsalının əhəmiyyətli dərəcədə azalması amerikalı fermerlər üçün müvəqqəti iqtisadi yüksəliş (“bum”) yaratmışdı. Lakin 1920–1921-ci illərdə Avropada istehsalın bərpa olunması ilə dünya bazarında kənd təsərrüfatı məhsullarına tələbin azalması qiymətlərin sürətlə enməsinə gətirib çıxarmışdır. [9]. 1921-ci ilə gəldikdə, əsas əkinçilik məhsullarının qiymətləri artıq müharibə öncəsi səviyyələrinə qədər geriləmişdi [9]. Hökumətlərin ilkin dövrdə sektoru dəstəkləyəcək ardıcıl siyasəti olmadığı üçün bu modelsiz “öz-özünə bərpa” cəhdi uğursuz hesab oluna bilər. Nəticədə 1920-ci illərin əvvəlində minlərlə fermer iflas uğradı, banklar problemli kənd təsərrüfatı kreditləri səbəbindən çökdü – dövrün təhlilləri göstərir ki, müharibə sonrası bumu fürsət bilib təcavüzkar kredit siyasəti yürüdən çox sayda yerli bank qiymətlərin kəskin düşməsi ilə ardınca iflasa uğradı [9]. Yalnız on il sonra, 1930-cu illərdə ABŞ-da Yeni Saziş (New Deal) çərçivəsində dövlət fermerlərə birbaşa müdaxilə (məhsul alışı, qiymət dəstəyi və s.) etməyə başladı.

II Dünya Müharibəsindən sonra (1945-ci illər) Avropanın aqrar sektoru tarixi sınaqla üz-üzə idi – torpaqlar, kənd infrastrukturu, heyvandarlıq zənciri dağıdılmış, milyonlarla insan məcburi köçkün düşmüşdü. Bu dəfə kollektiv səylərlə düşünülmüş modellər tətbiq olundu. Onlardan biri - Marşal Planı (Avropa Bərpa Proqramı) ən mühüm nümunələrdən biridir. Cənubi Afrika İnkişaf Bankının “Münaqişədən sonrakı ölkələrdə kənd təsərrüfatı və iqtisadi dirçəliş: heç vaxt öyrənmədiyimiz dərslər” adlı hesabatında qeyd olunduğu kimi, Marşall Palnı və Tayvanda həyata keçirilmiş “kənd təsərrüfatının yenidənqurma proqramı” tarixən post-konflikt ərazilərdə kənd təsərrüfatının bərpasına real töhfə vermiş iki uğurlu proqram hesab edilir. Bu iki nümunə təkcə kənd təsərrüfatının bərpasını deyil, həm də ümumi iqtisadiyyatın sürətli inkişafını təmin etmişdir [1, s.6]. Marşal Planı çərçivəsində kənd təsərrüfatının modernizasiyası xüsusi yer tuturdu – ABŞ istehsalı traktorlar, kombaynlar və s. texnika Avropaya göndərildi, fermerlərə toxum, gübrə yardımı edildi, təsərrüfatlar bərpa olundu. Nəticədə cəmi 3-4 il ərzində Qərbi Avropa iqtisadiyyatı dirçəldi. 1951-ci ilin sonuna Marşal Planına qoşulan bütün ölkələrdə ümumi iqtisadi istehsal həcmi müharibəqabağı səviyyəni 35%-dən çox üstələdi [3]. Xüsusilə sənaye istehsalı sürətlə artsa da, kənd təsərrüfatında da əhəmiyyətli yüksəliş əldə ed ildi. Planın hədəfi kənd təsərrüfatı istehsalını ən az 15% artırmaq idi və 1951-ci ildə faktiki olaraq Avropada kənd təsərrüfatı məhsulu 1938-ci ilin səviyyəsindən 11% yüksək idi (sənayedə artım hədəfi 30% olduğu halda faktiki +35% əldə olunmuşdu) [1, s.6]. Ümumilikdə, 1947-ci ildən 1951-ci ilə qədər cəmi dörd il ərzində Qərbi Avropada kənd təsərrüfatı istehsalı ~37% yüksəldi [8], iştirakçı ölkələrin ümumi milli gəliri isə ~33% artdı [8]. Bu dövrdə ərzaq qıtlığı əhəmiyyətli dərəcədə azaldı, Avropanın özünü təmin etmə qabiliyyəti yaxşılaşdı. Qərbi Avropa ölkələri arasında ərzaq məhsullarının mübadiləsi də canlandı – 1947–1951 aralığında Avropa daxilində ticarət həcmi təxminən iki dəfə artdı [8]. Bunun nəticəsində, məsələn, Fransa və Hollandiya kimi ölkələr 1950-ci illərdə tədricən ərzaq idxalçısından ixracatçısına çevrilməyə başladılar.

Bunun əksinə, bəzi ölkələr uğursuz agrar siyasətlər səbəbindən geridə qaldı. Xüsusən

SSRİ-nin təsiri altında Şərqi Avropa ölkələrində tətbiq olunan məcburi kollektivizasiya modeli aqrar sektorun dirçəlişində ciddi problemlər yaratdı. Müharibədən dərhal sonra (1940-cı illərin sonu) Polşa, Macarıstan, Rumıniya, Bolqarıstan kimi ölkələrdə xırda fərdi təsərrüfatlar zorla kolxoz və sovxozlara birləşdirilməyə başladı. Lakin bu cəhd güclü kəndli müqaviməti ilə və eyni zamanda texniki çatışmazlıqlarla üzləşdi – kənd təsərrüfatı texnikası (traktor, kombayn və s.) kəskin çatmırdı, kollektiv təsərrüfatlar sadəcə kiçik fermaların bir kağız üzərində birləşməsi kimi qalırdı, əmək məhsuldarlığında ciddi artım əldə olunmurdu [4]. Nəticədə, artıq 1950–1951-ci illərdə bu ölkələrdə ərzaq böhranı əlamətləri görüldü və SSRİ rəhbərliyi kollektivizasiya tempini yavaşıtmağa məcbur oldu – məsələn, Macarıstanda 1951-ci ilin fevralında kollektivləşdirmə rəsmi surətdə müvəqqəti dayandırıldı [4]. Uğursuzluğun səbəblərinə aşağıdakılər aid edilir: kollektivizasiya modeli kəndlilərin motivasiyasını azaldırdı (torpağın və məhsulun sahibinin dövlət olması onların həvəsini sındırırdı), üstəlik maddi-texniki təminat yetərsiz idi. Məsələn, Polşada sənaye sürətlə inkişaf etdiyi halda (1951-ci ildə sənaye istehsalı müharibəqabağı səviyyənin 268%-inə çatmışdı), kənd təsərrüfatı istehsalı hələ də müharibədən öncəki həddin cəmi 95%-i qədər qalırdı [4]. Yəni 1938-ci illə müqayisədə Polşa kənd təsərrüfatı 1951-də hələ *5% geri* idi – bu, praktiki olaraq durğunluq demək idi.

Bu nümunələr göstərir ki, Şərqi Avropada sovet rəhbərliyinin təzyiqi ilə tətbiq edilən məcburi kollektivləşmə modeli agrar sektorun transformasiyası baxımından institusional olaraq uyğunsuz və iqtisadi cəhətdən qeyri-səmərəli olmuşdur. Zənnimizcə, problemin mahiyyəti kollektiv istehsal formalarının özündə deyil, həmin modelin reallaşdırılma mexanizmlərində idi. Məcburi metodlara əsaslanması və ən əsası kəndlilərin mülkiyyət və qərarvermə hüquqlarını məhdudlaşdırması, eləcə də maddi-texniki resursların kifayət qədər olmaması aqrar istehsalın səmərəliliyini ciddi şəkildə zəiflədir, əmək motivasiyasını azaldır və struktur modernizasiyasını ləngidirdi. Nəticədə, kollektiv təsərrüfatlar formal olaraq mövcud olsa da, onların çoxu dayanıqlı istehsal vahidinə çevrilə bilməmiş, məhsuldarlıq göstəriciləri isə gözlənilən səviyyəyə çatmamışdır. Bununla belə, kollektivləşmə təcrübəsinin bu konkret variantının uğursuzluğu kollektiv təsərrüfatçılığının bütün mümkün formalarının prinsipial şəkildə qeyri-effektiv olması kimi şərh edilə bilməz. Müxtəlif ölkələrin müasir təcrübəsi göstərir ki, kooperasiya və kollektiv resurslardan birgə istifadə mexanizmləri müəyyən institusional və iqtisadi şərtlər mövcud olduqda, xüsusilə mexanikləşmə, torpaqdan daha səmərəli istifadə və kənd infrastrukturunun genişləndirilməsi baxımından müsbət nəticələr verə bilər. Şərqi Avropa nümunəsində isə əsas problem kollektivləşmənin məqsədyönlü iqtisadi islahat deyil, daha çox siyasi-inzibati layihə kimi həyata keçirilməsi, yerli sosial-iqtisadi reallıqlara adaptasiya olunmaması və stimullaşdırıcı mexanizmlərin zəifliyidir. Beləliklə, 1940–1950-ci illərdə Şərqi Avropada müşahidə olunan geriləmə daha çox kollektivləşmə siyasətinin məzmunundan deyil, onun tətbiq forması və institusional dizaynından irəli gəlirdi.

İkinci dünya müharibəsindən sonra aqrar sektorun dirçəlişinə dair ikinci uğurlu yanaşma, qeyd etdiyimiz kimi, Tayvanda fəaliyyət göstərmiş Çin–Amerika Birgə Komissiyasının (JCRR) kənd rayonlarının bərpasına, aqrar sahənin inkişafına və post-konflikt ölkələrində iqtisadi yenidənqurma məsələlərinə yönəlmiş proqramıdır. Və burada xüsusi diqqət çəkən məqam odur ki, həmin illərdə Tayvan aşağı gəlirli, təbii resurslarla məhdud təmin olunan inkişaf etməkdə olan bir ölkə idi. Əhali həm kütləvi miqrasiya, həm də yüksək təbii artım (3%-dən çox) nəticəsində sürətlə çoxalmış, lakin daxili bazar məhdud olaraq qalırdı. İqtisadiyyat yüksək inflyasiya və ödəniş balansının xroniki kəsiri ilə üz-üzə idi. Bu baxımdan, müharibədən sonrakı Avropadan fərqli olaraq, Tayvandakı şərait müasir Afrika ölkələrinin aşağı gəlirli iqtisadi strukturlarına yaxın idi [1, s.6]. Belə olduğu halda sual yaranır ki, necə oldu ki, iki onillikdən az bir müddətdə Tayvan sərt resurs məhdudiyyətləri ilə üzləşməsinə baxmayaraq sürətlə sənayeləşən iqtisadiyyat üçün struktur

dəyişikliklərinin ekstremal modeli olaraq səciyyələndi? Belə ki, bu ölkənin nümunəsi göstərir ki, müharibədən sonrakı dərin resurs məhdudiyyətlərinə baxmayaraq aqrar sektorun məqsədyönlü institusional dəstəyi və onun sənaye ilə əlaqələndirilməsi qısa müddətdə genişmiqyaslı iqtisadi dirçəlişə gətirib çıxara bilər. ABŞ yardımının yalnız kənd təsərrüfatına deyil, paralel şəkildə sənaye sahələrinə də yönəlməsi, lakin bu proseslərin JCRR-in koordinasiyası altında qarşılıqlı tamamlayıcı mexanizmlərlə icra olunması Tayvan modelinin uğurunun başlıca amili olmuşdur. JCRR-in fəaliyyəti təkcə kənd təsərrüfatının bərpası ilə məhdudlaşmır, həm də kənd infrastrukturu, əsas xidmətlər, yerli idarəetmə və digər sahələr üzrə kompleks inkişaf tədbirlərini əhatə edirdi. Komissiyanın yarım-müstəqil institusional quruluşu və yerli özəl təşkilatların bilavasitə layihə icraçısı kimi prosesə cəlb edilməsi ABŞ yardımının daha səmərəli istifadəsinə şərait yaratmışdır. Nəticədə aqrar sektor Tayvanda sənayeləşmə prosesini sürətləndirən amilə çevrilmişdir. Aqrar istehsalın genişlənməsi, resursların səmərəli səfərbər olunması və kənd təsərrüfatı ilə sənaye arasında yaradılan güclü qarşılıqlı asılılıq mexanizmləri ölkənin qısa müddətdə dərin struktur dəyişiklikləri həyata keçirməsinə imkan vermişdir. Bu, bir çox zəif inkişaf etmiş ölkələrin təcrübəsi ilə kəskin ziddiyyət təşkil edir, çünki həmin ölkələrdə kənd təsərrüfatının zəif inkişafı sənaye sektorunun böyüməsini və ümumi iqtisadi irəliləyişi əngəlləyən əsas faktorlardan biri olmuşdur [1, s.7]. Beləliklə, Tayvan təcrübəsi göstərir ki, aqrar sektorun sistemli təşkili, institusional müstəqillik, yerli potensialın səfərbər edilməsi və aqrar–sənaye sinerjisinin yaradılması post-konflikt və aşağı gəlirli ölkələrdə davamlı iqtisadi dirçəliş üçün mühüm şərtlərdən biridir. Lakin qeyd etmək lazımdır ki, bu yanaşma aqrar sektorun lehinə formalaşmış pozitiv siyasət meyli kimi qiymətləndirilə bilməz. Əksinə, kənd təsərrüfatı məhsullarının qiymətləri dövlət tərəfindən ciddi şəkildə tənzimlənir, ərzaq qiymətləri isə əhalinin ucuz qida ilə təmin olunması məqsədilə aşağı səviyyədə saxlanılırdı. Bununla yanaşı, məhsuldarlığın artırılmasını stimullaşdırmaq üçün dövlət subsidiyalarından məqsədyönlü şəkildə istifadə olunurdu [1, s.6-8]. Cənubi Afrika İnkişaf Bankının Vu Huana istinadən vurğuladığı kimi, Tayvanın iqtisadi inkişafının ilkin mərhələlərində kənd təsərrüfatı siyasətinin fermerlər üçün əlverişli olmamasına baxmayaraq, dövlətin tədqiqatlara, bilik və texnologiyaların transferinə, suvarma sistemlərinə və digər kənd infrastrukturuna yatırdığı investisiyalar aqrar istehsal və məhsuldarlığın əhəmiyyətli artımını təmin etmişdir. Nəticədə kənd təsərrüfatında məhsuldarlığın yüksəlməsi böyük həcmdə kapitalın və işçi qüvvəsinin aqrar sahədən iqtisadiyyatın digər sektorlarına yönləndirilməsinə imkan yaratmışdır [10].

Zənnimizcə, Tayvan təcrübəsi göstərir ki, kənd təsərrüfatının inkişafına yönəlmiş siyasətlər hər zaman fermerlər üçün əlverişli şərtlərin yaradılması ilə müşayiət olunmur, əksinə, bəzi hallarda dövlətin makroiqtisadi məqsədləri qiymətlərin tənzimlənməsi və resursların yenidən bölgüsü kimi müdaxilələri zəruri edir. Bu, Vu Huanqun da qeyd etdiyi kimi, aqrar sektora yönəlmiş "pozitiv meylin" deyil, daha çox struktur dəyişikliklərinin sürətləndirilməsi üçün şüurlu iqtisadi strategiyanın göstəricisidir. Dövlətin tədqiqat, infrastruktur və bilik transferinə yönəltdiyi investisiyalar məhsuldarlığı artıraraq kapital və işçi qüvvəsinin digər sahələrə axınını mümkün etmiş, nəticədə iqtisadiyyatın bütövlükdə modernləşməsinə zəmin yaratmışdır. Bu nümunə post-konflikt kontekstində iqtisadi dirçəlişin prinsiplərinə dair mühüm metodoloji çıxarışlar irəli sürür. Belə ki, bərpa mərhələsində tətbiq edilən siyasətlər heç də həmişə klassik iqtisadi inkişaf modellərinə tam uyğun gəlmir. Müharibə və ya sosial dağınıqlıqdan çıxan dövlətlər üçün iqtisadiyyatın struktur balansını bərpa etmək, sosial sabitliyi təmin etmək və resurs qıtlığı şəraitində prioritetləri rasional şəkildə müəyyənləşdirmək çox vaxt qeyri-standart həllər tələb edir. Belə kontekstlərdə qiymət tənzimlənməsi, dövlət yönümlü investisiya siyasətləri, torpaqların konsolidasiyası kimi müdaxilələr müvəqqəti olsa da, inkişafın ilkin impulsunu yaratmaq üçün zəruri instrumentlərə

çevrilə bilir. Bu baxımdan Tayvan nümunəsi göstərir ki, post-konflikt mühitlərdə iqtisadi dirçəliş yalnız bazar mexanizmlərinin sərbəst fəaliyyətinə buraxıla bilməz; əksinə, məqsədli dövlət müdaxiləsi və institusional koordinasiya inkişafın başlanğıc mərhələsi üçün həlledici rol oynayır.

**Son 30 ildə münaqişədən sonra aqrar sektorun dirçəlişi**

Son 30 ildə bir çox ölkə (xüsusən Asiya, Afrika və Şərqi Avropada) daxili və ya regional hərbi münaqişələr yaşayıb. Müharibələr bitdikdən sonra həmin ölkələr üçün əsas suallardan biri "kənd təsərrüfatını necə bərpa etməli?" olmuşdur. Çünki silahlı münaqişələr kənd təsərrüfatına çoxşaxəli ziyan vurur: bir tərəfdən fiziki infrastruktur dağıdılır – əkin sahələri minalanır və ya yandırılır, suvarma şəbəkələri, texnika, anbarlar məhv edilir; digər tərəfdən insan resursları itirilir [5]. Bütün bunlar post-konflikt dövründə aqrar sektoru son dərəcə həssas vəziyyətdə qoyur.

Son onilliklərin təcrübəsi göstərir ki, post-münaqişə şəraitində kənd təsərrüfatının dirçəldilməsi üçün sistemli, "ikili" yanaşma tələb olunur. Birinci istiqamət təcili bərpa və humanitar dəstək**,** ikinci istiqamət isə uzunmüddətli struktur islahatları və investisiyalardır. Aparılan tədqiqatlar əsasında bərpanın formalaşmış bəzi prinsiplərinə təcili reabilitasiya tədbirlərini aid edə bilərik. Belə ki, münaqişə bitər-bitməz ilk mərhələdə əsas hədəf insanların ac qalmamasıdır. Bu səbəbdən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və digər humanitar qurumlar post-konflikt zonalarda **"**toxum və alət paylama" kampaniyaları keçirirlər, kənd ailələrinə əkin üçün toxum, sadə kənd təsərrüfatı alətləri, bəzən də heyvandarlıq üçün bala heyvanlar verilir. Məsələn, Ruandada 1994 soyqırımından dərhal sonra kənd əhalisinə toxum və maya mal-qara paylanması proqramları həyata keçirildi – nəticədə cəmi bir il ərzində ölkədə əkinçilik fəaliyyətini bərpa etmək mümkün olmuşdu.
.

Eyni zamanda mina təmizləmə əməliyyatları kritik əhəmiyyət daşıyır: müharibələrdən sonra minalanmış sahələr kənd təsərrüfatına yararsızdır, buna görə beynəlxalq agentliklər illərlə mina təmizləmə işləri aparırlar (məsələn, Kamboca və Mozambikdə on minlərlə hektar torpaq sülh dövrünün ilk illərində minalardan təmizlənmişdi) [5]. Təcili tədbirlərə həmçinin dağıdılmış irriqasiya sistemlərinin bərpası daxildir – suvarma kanalları, quyular, bəndlər təmir olunur ki, əkin sahələrinə su verilməsi bərpa edilsin. Bir sözlə, bu mərhələdə "ərzaq təhülkəsizliyinin təminatı" bir nömrəli məqsəd olur.

Bununla belə, institusional mühit və torpaq islahatları bərpanın mühüm prinsipini təşkil edir. Post-konflikt ərazilərin bərpasına elmi yanaşmalar torpaq münasibətlərinin tənzimlənməsini xüsusi vurğulayır. Müharibədən sonra çox vaxt *"torpaq üstündə mübahisələr"* yaranır – köçkünlər geri dönüb torpaqlarını tələb edir, və ya hökumətlər müəyyən torpaqları dövlət mülkiyyətinə keçirir. Uğurlu bərpa üçün ilk növbədə torpaq hüquqlarının aydınlaşdırılması lazımdır ki, fermerlər torpağın sahibi olduğuna əmin olaraq əkib-becərə bilsin. Məsələn, Sierra Leoneda və Liberiyada vətəndaş müharibələrindən sonra hökumətlər kənd icmaları ilə birlikdə torpaq reyestrlərini bərpa edib, mülkiyyət hüquqlarını tanımaq üçün xüsusi komissiyalar yaratmışdılar – bu addım kənddə investisiya üçün stimul yaratdı. Paralel olaraq kənd təsərrüfatı kooperativlərinin təşviqi, yeni yaradılan və ya dağıdılıb yenidən qurulan kənd kredit ittifaqlarının fəaliyyəti də dirçəlişin "elmi" komponenti kimi dəyərləndirilir. Belə institutlar fermerlərin toxum, gübrə, texnika əldə etməsinə kömək edir, məhsulun satışını təşkil edir.
Tədqiqatlar göstərir ki, post-konflikt dövrdə əksər ölkələrdə kənd təsərrüfatının artımı, hətta dövlət dəstəyinin məhdud olduğu şəraitdə belə, əsasən kiçik təsərrüfatlar tərəfindən təmin edilir

**Cədvəl 1.** Münaqişədən sonrakı aqrar sektorun bərpa modelləri

| **Ölkə** | **Bərpa modeli** | **Müharibədən sonrakı vəziyyətin xüsusiyyətləri** | **Münaqişədən sonra siyasətin prioritetləri** | **Aqrar sektorun bərpasının nəticələri** |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| Kamboca | Kənd təsərrüfatına qayıdış + özəl investisiyalar | Əhali itkisi, suvarma sistemlərinin dağılması, minalanmış ərazilər | İcma təsisatlarının bərpası, ticarət əlaqələrinin bərpa olunması, xarici investisiya axını | Kənd təsərrüfatı istehsalının sürətli artımı, kiçik fermerlərin fəal iştirakı, ixraclıq düyü istehsalının inkişafı |
| Peru (Cənub yüksək dağlıq bölgələri) | Sosial proqramlar və infrastruktur investisiyaları hesabına inkişaf | Uzunmüddətli miqrasiya, ictimai institutların zəifləməsi | Sosial xidmətlərə, yollara, suvarmaya və kənd təsərrüfatı ailələrinə dəstəyin artırılması | Kasıbçılığın azalması, istehsalın şaxələnməsi (o cümlədən üzvi məhsullar), yerli sahibkarlığın güclənməsi |
| Ruanda | Güclü dövlət idarəçiliyi + torpaq konsolidasiyası | Soyqırım nəticəsində əhali və sosial strukturların dağılması, qaçqınların kütləvi qayıdışı | Torpaq sahələrinin iri bloklara birləşdirilməsi, texnologiyaların standartlaşdırılması, istehsalın mərkəzləşdirilməsi | Sürətli bərpa, lakin təsərrüfat müxtəlifliyinin məhdudlaşdırılması səbəbindən artım sonradan zəiflədi |
| Sierra-Leone | Donor dəstəyi + ərzaq təhlükəsizliyinə vurğu | Kütləvi itkilər və travmalar, yerli institutların dağılması | Ev təsərrüfatlarına birbaşa yardım, yolların və bazarların bərpası, gənclər proqramları | Müharibədən sonrakı ilk 10 ildə xüsusən düyü istehsalında dinamik artım |
| Şimali Uqanda | Uzunmüddətli düşərgə həyatı səbəbindən yavaş bərpa | Kənd əhalisinin məcburi köçürülməsi, bacarıqların itirilməsi, torpaq münasibətlərinin pozulması | Aqrar xidmətlərin islahı cəhdləri və istehsalçılara dəstək, lakin icmaların məhdud iştirakı | Bərpa zəif və ləng olmuşdur; istehsal digər ölkələrlə müqayisədə daha yavaş artmışdır |

**Mənbə: [11]** əsasında müəllif tərəfindən işlənmişdir.

Cədvəl 1-dən göründüyü kimi, post-konflikt ərazilərdə aqrar sektorun uğurlu bərpası təkcə maddi infrastrukturdan deyil, həm də sosial və institusional əsasların bərpasından asılıdır. Kamboca və Sierra-Leoneda icmaların və yerli bazarların canlandırılması sürətli artıma gətirib çıxarmışdır. Peru nümunəsi göstərir ki, sosial investisiyalar və xidmətlərin genişləndirilməsi aqrar inkişafla birləşdikdə davamlı nəticələr əldə olunur. Ruandada torpaq konsolidasiyasına əsaslanan model qısamüddətli məhsuldarlığı artırsa da, kənd təsərrüfatı müxtəlifliyinin məhdudlaşması səbəbindən uzunmüddətli dayanıqlılıq riskləri yaradır. Bu səbəbdən Ruandada sülhdən sonra hökumətin növbəti əsas strategiyası “hər kəndliyə inək” proqramı kimi tanındı və xırda ailə təsərrüfatlarına yönləndirildi. Nəticədə, kənd yerlərində yoxsulluq sürətlə azaldı, süd və ət istehsalı kəskin artdı (Ruandada illik süd istehsalı 1994-cü ildə 7 milyon litr idisə, hazırda 864 milyon litri keçir) [6]. Qeyd etmək lazımdır ki, Kamboca təcrübəsində də yerli liderlər (xüsusən 1980-ci illərdə və 1990-cı illərin əvvəllərində) kolxoz tipli strukturları tədricən ləğv edib torpaqları kəndlilər arasında böldülər, xarici donorların bəzi tövsiyələrinə rəğmən subsidiya və bazar yanaşmalarını öz kontekstlərinə uyğunlaşdırdılar – bunun sayəsində Kamboca kənd təsərrüfatı çox sürətli bərpa olundu [5]. Şimali Uqanda nümunəsi göstərdiyi kimi, kiçik təsərrüfatlara yetərli diqqət ayrılmadıqda bərpa ya zəifləyir, ya da uzanır.

Mozambikdə post-konflikt dövrdə aqrar sektorun bərpasına həsr edilmiş elmi-tədqiqat

əsərlərindən birində qeyd olunur ki, ölkədə 1992-ci il sülh razılaşmasından sonra formalaşan aqrar dirçəliş modeli əsasən kiçik təsərrüfatçılığın bərpasına söykənmiş, dövlət təsərrüfatlarından fərdi istehsal strukturuna keçid isə post-konflikt aqrar sektor quruculuğunun aparıcı transformasiya xəttini təşkil etmişdir [2].

Bu isə o deməkdir ki, ölkədə aqrar inkişaf modeli dövlət-istismarçı strukturdan imtina edərək kiçik təsərrüfatçılığa əsaslanan, institusional və istehsal münasibətlərində sistemli transformasiyanı prioritetləşdirən keçid paradigması kimi səciyyələnir.

Digər tərəfdən, sənəddə o da qeyd olunur ki, Mozambikdə post-konflikt aqrar bərpa çərçivəsində yollar, su sistemləri və bazar infrastrukturunun genişmiqyaslı fiziki rekonstruksiyası aparılsa da, institusional idarəetmənin zəifliyi bu investisiyaların təsirini məhdudlaşdırmışdır. Kənd təsərrüfatında baş verən artım əsasən məhsuldarlığın yüksəlməsindən deyil, ekstensiv genişlənmə və əlverişli iqlim amillərindən irəli gəlmiş, bu isə sektorun struktur zəifliklərini üzə çıxarmışdır. Pulsuz alət və toxum yardımına əsaslanan təchizat sistemi uzunmüddətli asılılıq yaratmış və bunun alternativi kimi yerli istehsal, təmir və xidmət ekosistemlərinin təşviqi irəli sürülmüşdür. Qeyri-formal əmək münasibətləri və icma institutları kənd təsərrüfatı idarəetməsində mühüm rol oynadığından, dövlət siyasətinin mövcud sosial strukturla uyğunlaşdırılması zəruri olmuşdur [2].

Müharibə və ya genişmiqyaslı silahlı qarşıdurmalar başa çatdıqdan sonra kənd təsərrüfatı sektorunun dirçəlişi bir çox inkişaf etməkdə olan ölkələrdə makroiqtisadi bərpanın əsas drayverlərindən birinə çevrilir. Empirik tədqiqatlar göstərir ki, post-münaqişə dövründə aqrar istehsalın dinamikası əksər hallarda "bərpa effekti" adlandırılan spesifik mərhələ ilə xarakterizə olunur. Bu mərhələdə kənd əhalisinin öz torpaqlarına qayıtması, əkinə yararlı sahələrin yenidən dövriyyəyə daxil edilməsi və əmək resurslarının sürətli səfərbərləşməsi nəticəsində istehsalda kəskin artım müşahidə edilir. Beləliklə, agrar sektorun ilkin canlanması yalnız ərzaq təhlükəsizliyinin təmin edilməsinə deyil, həm də ÜDM-in qısamüddətli yüksəlişinə əhəmiyyətli töhfə verir. Cədvəl 2-də Ruanda, Sierra Leone və Mozambik kimi müxtəlif regionlara aid üç ölkənin təcrübəsi ümumiləşdirilərək iqtisadi nəticələri göstərilir. Məlumatlar bu ölkələrdə münaqişə bitdikdən sonrakı ilk 10–20 il ərzində kənd təsərrüfatı istehsalının necə sürətlə bərpa olunduğunu və bəzən müharibəöncəsi səviyyəni dəfələrlə üstələdiyini nümayiş etdirir. Bu nümunələr post-konflikt dövrlərdə agrar sektorun rolunun struktur baxımından mərkəzi olduğunu və "bərpa effekti"nin uzunmüddətli inkişaf trayektoriyasını müəyyən edən açar mexanizmlərdən biri kimi çıxış etdiyini təsdiqləyir.

**Cədvəl 2.** Bəzi ölkələrin aqrar sektorunun dirçəlişinin iqtisadi nəticələri

| **Ölkə** | **Münaqişənin bitmə tarixi** | **Kənd təsərrüfatında ilkin bərpa dövrü** | **Ümumi artım göstəriciləri** | **Əsas məhsullardakı dəyişikliklər** | **Ümumi əticə** |
|---|---|---|---|---|---|
| **Ruanda** | 1994 (soyqırım) | 1995–2005 | Kənd təsərrüfatı istehsalı (iki dəfədən çox artım) | Qarğıdalı istehsalı ~3 dəfə artdı | ÜDM 1995-də +15% – bərpanın əsas drayveri kənd təsərrüfatı |
| **Sierra Leone** | 2002 (vətəndaş müharibəsi) | 2002–2012 | Kənd təsərrüfatı istehsalı təxminən +177% (yəni ~2,8 dəfə) | Düyü istehsalında yüksəliş – daxili tələbatın böyük hissəsi yerli istehsal hesabına | 10 ilə yaxın müddətdə müharibə itkisi tam kompensasiya olundu |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | təmin edilməyə başlandı | |
| **Mozambik** | 1992 (vətəndaş müharibəsi) | 1992–2002 | İlk 10 ildə +52%, növbəti 15 ildə +87% → ümumi artım ~3 dəfə | Şəkər, balıq məhsullarında istehsal və ixrac yüksəldi | 2000-ci illərdə bəzi ərzaq məhsullarının ixracatçısına çevrildi |

**Mənbə:** [5] və [7]əsasında müəllif tərəfindən işlənmişdir.

Son 30 ilin elmi araşdırmaları göstərir ki, münaqişədən çıxmış ölkələrdə aqrar sektorun dirçəlişi üçün *kompleks və mərhələli yanaşma* zəruridir. İlk mərhələdə kənd sakinlərinin təcili ehtiyaclarını (ərzaq, toxum, alət, sığınacaq) təmin edilməsi humanitar sabitliyin yaranması baxımdan faydalı ola bilər. Növbəti mərhələdə isə kənd təsərrüfatının davamlı inkişafını hədəfləyən strateji addımlar - institusional quruculuq, bazarlara çıxışın təmin edilməsi, yolların bərpası, kəndə kredit axınının təşkil edilməsi, elmi-kənd təsərrüfatı texnologiyalarının (yeni toxum sortları, gübrə, suvarma texnikası) transferi və s.

Aparılan təhlil göstərir ki, post-konflikt regionlarda aqrar sektorun bərpası mürəkkəb, çoxsahəli və mərhələli proses olmaqla yanaşı, hər bir ölkənin spesifik sosial-iqtisadi kontekstindən asılı olaraq fərqli trayektoriyalara malik olur. Marşal Planı, Tayvan modeli, Afrika ölkələrinin humanitar–institusional kombinasiyalı yanaşmaları və Şərqi Avropanın kollektivləşmə təcrübəsi bir daha sübut edir ki, uğurun və ya uğursuzluğun həlledici səbəbləri yalnız maddi resurslarla deyil, tətbiq edilən siyasətlərin dizaynı, torpaq münasibətlərinin tənzimlənməsi, institusional koordinasiya və yerli icmaların prosesə inteqrasiyası ilə bağlıdır.

Lakin beynəlxalq təcrübənin müqayisəsi eyni zamanda onu da göstərir ki, post-konflikt aqrar bərpa üçün "universal model" və ya bütün ölkələrin tətbiq edə biləcəyi standart yanaşma mövcud deyil. Tayvanda torpaq konsolidasiyasına əsaslanan və aqrar–sənaye sinerjisini hədəfləyən model sürətli transformasiya yaratmış, Ruandada torpaq sahələrinin iri bloklara birləşdirilməsi ilkin mərhələdə məhsuldarlığı artırsa da, uzunmüddətli dayanıqlılıq baxımından çətinliklər formalaşdırmış, Kamboca və Mozambikdə isə daha çox kiçik təsərrüfatçılıq üzərində qurulan modellər müəyyən müddət üçün uğurlu nəticələr vermişdir. Bu müxtəliflik onu göstərir ki, bərpa siyasətləri kontekstə uyğunlaşdırılmalı, institusional reallıqlar nəzərə alınmalı və tək bir sxemin tətbiqi məqsədəuyğun sayılmamalıdır.Bu tədqiqatın nəticələri Azərbaycan üçün də bir sıra strateji istiqamətləri müəyyən edir. Ən mühüm məqam ondan ibarətdir ki, azad edilmiş ərazilərdə aqrar sektorun bərpası yalnız humanitar və texniki tədbirlər paketi (infrastrukturun bərpası, torpaqların minalardan təmizlənməsi, toxum və texnika təminatı və s.) ilə məhdudlaşmamalı, uzunmüddətli struktur transformasiyasını hədəfləyən institusional çərçivə ilə tamamlanmalıdır. Tayvan nümunəsinin göstərdiyi kimi, post-konflikt şəraitdə kənd təsərrüfatının sadəcə "özünütəminat" səviyyəsində dirçəldilməsi kifayət etmir. Belə ki, aqrar istehsalın emal sənayesi, logistika şəbəkələri, ixrac infrastrukturunun inkişafı və regiondaxili sənaye zonaları ilə əlaqələndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan azad olunmuş ərazilərdə aqrar-sənaye koordinasiyası – yəni kənd təsərrüfatı istehsalı, ilkin və dərin emal müəssisələri, xidmət və logistika mərkəzləri, həmçinin innovasiya və tədqiqat infrastrukturu arasında sıx qarşılıqlı asılılıq mexanizmlərinin formalaşdırılmasını – dövlət siyasətinin əsas dayaq istiqamətlərindən biri kimi nəzərdən keçirmək məqsədəmüvafiqdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Agriculture and economic recovery in post-conflict countries: Lessons we never learnt

2. Brück T., FitzGerald V. at al. Enhancing the Private Sector Contribution to Post-War Recovery in Poor Countries // QEH Working Paper Series QEHWPS45(1).

3. Eichengreen, Barry (2008). The European Economy Since 1945: Coordinated

Capitalism and Beyond. Princeton University Press

4. Eastern Europe Since 1950 (July 1952) / https://ernestmandel.org/ancien-site/en/works/txt/1952/eastern_europe_since_1950.htm

5. Farming after fighting. Agricultural recovery after conflict: a review of evidence and practice. farm-d.orgfarm-d.org.

6. Rwanda's agriculture sector transformation journey over the last 27 years. minagri.gov.rw.

7. Rwanda: From Post-Conflict Reconstruction to Development; Farming after fighting.

8. The Marshall Plan: Design, Accomplishments, and Significance / everycrsreport.com

9. The WWI Agriculture Boom and Bust / aier.org

10. Wu Huang S. Structural change in Taiwan's agricultural economy. Economic Development and Cultural Change / Economic Development and Cultural Change, University of Chicago, 1993, 42(1), p.43-65.

11. Wiggins S., Banerjee R., Patel N., Shikuku K. Farming after fighting: Agricultural recovery after conflict. SPARC / ODI, 2023. URL:https://cgspace.cgiar.org/server/api/core/bitstreams/c92429f4-492d-4543-bbc1-03136923c819/content

**Sabina Sadikh ASADOVA**
Senior Researcher at the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan
E-mail: sabina_esedova@mail.ru

## INTERNATIONAL APPROACHES TO AGRICULTURAL RECOVERY IN POST-CONFLICT REGIONS

**Summary**

The article provides a comparative analysis of international approaches to agricultural recovery in post-conflict regions and synthesizes the key principles derived from both historical and contemporary country experiences. The study demonstrates that revitalizing the agricultural sector following war or large-scale conflict is a multidimensional process that requires not only the rehabilitation of physical infrastructure, but also the effective management of land relations, institutional coordination, support for smallholder farming, and a balanced interaction between state intervention and market mechanisms. The analysis therefore concludes that, although international experience does not offer a universal model for the restoration of agriculture in post-conflict countries, it does yield a set of guiding principles that can inform policy design.

**Keywords:** post-conflict development, agricultural recovery, land consolidation, collectivization, institutional reforms, international experience, agro-industrial integration.

**Сабина Садих АСАДОВА**
Старший научный сотрудник, Институт экономики, Министерство науки и образования Республики Азербайджан
E-mail: sabina_esedova@mail.ru

## МЕЖДУНАРОДНЫЕ ПОДХОДЫ К ВОССТАНОВЛЕНИЮ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ПОСТКОНФЛИКТНЫХ РЕГИОНАХ

**Аннотация**

В статье представлен сравнительный анализ международных подходов к восстановлению сельского хозяйства в постконфликтных регионах и синтезируются ключевые принципы, выработанные на основе как исторического, так и современного опыта различных стран. Исследование показывает, что возрождение сельскохозяйственного сектора после войны или масштабного конфликта является многомерным процессом, требующим не только восстановления физической инфраструктуры, но и эффективного управления земельными отношениями, институциональной координации, поддержки мелких фермерских хозяйств и сбалансированного взаимодействия между государственным вмешательством и рыночными механизмами. Анализ позволяет сделать вывод, что, хотя международный опыт не предлагает универсальной модели восстановления сельского хозяйства в постконфликтных странах, он предоставляет набор руководящих принципов, которые могут быть полезны при разработке политики.

**Ключевые слова:** постконфликтное развитие, восстановление сельского хозяйства, консолидация земель, коллективизация, институциональные реформы, международный опыт, агропромышленная интеграция.

**Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir**
**Qrant № AEF-MQM-QA-3-2025-3(56)-03/03/5-M-03**

**Daxil olub:20.10.2025**